# AŞ PA-nın seçki müşahidə missiyası Milli Məclisdə görüşlər keçirib

Avropa Şurası Parlament Assambleyası noyabrın 1-də ölkəmizdə keçiriləcək parlament seçkilərinə böyük önəm verir. Artıq qurum bu proseslə maraqlanmağa start verib. Belə ki, AŞ PA rəhbərliyi ölkəmizdəki seçkiöncəsi mühit və seçkiyə hazırlıq prosesini müşahidə etmək üçün Azərbaycana müşahidə missiyası göndərib. Dünən qurumun seçki müşahidə missiyası üzrə “ad hok” (müvəqqəti) komitəsinin üzvləri Milli Məclisdə olaraq bir sıra görüşlər keçiriblər.

Öncə qonaqlar Milli Məclisdə təmsil olunan bitərəf deputat qrupunun təmsilçisi, Milli Məclisin sədr müavini Valeh Ələsgərovla görüşdülər. Müşahidə missiyasının Bakıya səfərinin uğurlu olacağına inandığını deyən Valeh Ələsgərov bildirdi ki, parlamentdə 42 bitərəf deputat var. Bu deputatların çoxu Azərbaycan Respublikası Seçki Məcəlləsinə uyğun olaraq yenidən namizədliklərini irəli sürmək fikrindədirlər.

AŞ PA-nın seçki müşahidə missiyasının müvəqqəti komitəsinin üzvü Xordi Şukla isə qeyd etdi ki, səfərdə məqsəd seçkiöncəsi vəziyyəti müşahidə etməkdir. Yeni namizədlərin imza toplama kampaniyası, MSK-nın bu dövrdəki fəaliyyəti, eləcə də dairələrdə seçkiyə hazırlıq prosesi nəzərdən keçiriləcək.

Qonaqların “AŞ PA Azərbaycanda demokratiyanın daha da inkişafı üçün hansı yardımları göstərə bilər?” sualına Valeh Ələsgərovun cavabı belə oldu: “Yardım daha çox ehtiyacı olan təbəqəyə edilir. Azərbaycana yardım lazım deyil, ölkəmizə yalnız bərabərhüquqlu əməkdaşlıq lazımdır. Azərbaycan hər zaman ikitərəfli əməkdaşlığa açıq ölkədir və AŞ PA ilə əlaqələrin daha da inkişafında maraqlıdır”.

* * *

Sonra qonaqlar Milli Məclisdə Yeni Azərbaycan Partiyasını təmsil edən deputat qrupunun üzvləri ilə görüşdülər. Görüşdə YAP-ın icra katibinin müavini, Milli Məclisin İntizam komissiyasının sədri Siyavuş Novruzov, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli iştirak edirdi.

Siyavuş Novruzov bildirdi ki, hazırda seçki prosesinin ən vacib mərhələsidir. Deputatlığa namizədlər imza toplayırlar.

S.Novruzov bildirdi ki, Azərbaycanla Avropanın bəzi strukturları arasında gərginlik var: “Avropa Parlamentinin son qərəzli qətnaməsi Azərbaycanda ciddi etirazla qarşılanıb. Çünki həmin qətnamədə göstərilənlərin heç bir hüquqi əsası yoxdur. Avropa Parlamenti son il yarım ərzində Azərbaycanla bağlı 3 qətnamə qəbul edib. Bunların hamısı ölkəmizdə mühüm hadisələr ərəfəsində baş verib. Bizə bəllidir ki, parlament seçkiləri ərəfəsində qəbul olunan qərəzli qətnamənin arxasında siyasi maraqlar dayanır”.

YAP-ın bütün seçkilərdə iştirak etdiyini söyləyən komissiya sədri dedi ki, ötən parlament seçkilərində partiyanın üzvləri 114 dairədən öz namizədliklərini irəli sürüb və onlardan 71 nəfəri deputat seçilib. Bu il keçiriləcək seçkilərdə isə YAP-ın 117 namizədi var. Artıq 76 dairə üzrə imza vərəqələri təhvil verilib. Digər partiyalar da eyni qaydada namizədlərini irəli sürürlər. Müstəqil şəkildə seçkiyə qatılmaq isə asandır. Belə ki, seçkiyə qatılmaq istəyən şəxs ərizə ilə müraciət etdikdən sonra 450 seçicinin imzasını toplamalıdır. Hər dairədə isə 38-40 min seçici yaşayır. Yəni 1,5 faiz seçici imzası toplamaqla seçkiyə qatılmaq mümkündür. Ölkəmizdə 50-yə yaxın siyasi partiya blok və fərdi qaydada seçkilərdə iştirak edir. S.Novruzovun sözlərinə görə, bütün namizədlərə bərabər hüquqlar yaradılıb. İstənilən namizəd seçiciləri ilə həm qapalı, həm də açıq şəraitdə görüşə bilər və bunun üçün onlara xüsusi yerlər ayrılır. Bundan əlavə, dövlət tərəfindən də namizədlərə ciddi dəstək var. Televiziyada və dövlət qəzetlərində namizədlərə vaxt və yer ayrılır.

Azərbaycan üzrə həmməruzəçi Aqustin Konde bildirdi ki, AŞ PA Azərbaycanla əməkdaşlığa xüsusi önəm verdiyi üçün müşahidə missiyası təyin edib. Eyni zamanda AŞ PA-nın Azərbaycana münasibəti Avropa Parlamentinin Azərbaycana münasibətindən fərqlənir.

* * *

Sonra qonaqlar Azərbaycanın AŞ PA-dakı nümayəndə heyəti ilə görüşdülər. Nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirdi ki, AŞ PA Azərbaycanda parlament seçkiləri ərəfəsində öz missiyasını yerinə yetirir və ölkəmiz bu qurumun fikirlərinə böyük önəm verir.

Xordi Şukla isə qeyd etdi ki, səfərdə məqsəd seçkiöncəsi mühiti dəyərləndirmək və hesabat hazırlamaqdır. Onun sözlərinə görə, AŞ PA-nın monitorinqi altında olan ölkələrin öhdəlikləri var. Belə ki, həmin ölkələr seçkilərin müşahidəsi ilə bağlı lazımi şərait yaratmalıdır. Əməkdaşlığın yüksək formada olması üçün AŞ PA-nın standartlarının tətbiq olunması vacib şərtlərdən biridir. Bu, əməkdaşlığı daha da gücləndirir. S.Seyidov isə dedi ki, Azərbaycan öz öhdəliyini şərəflə, layiqli yerinə yetirməyə hazırdır: “Biz nə AŞ PA, nə də ATƏT-in missiyasının işinə qarışmamışıq. İstəyimiz yalnız odur ki, gələn missiya reallıqları görsün. Bunun üçün biz bütün şəraiti yaratmağa hazırıq. Biz ikitərəfli əməkdaşlığa həmişə hazırıq. Biz tam demokratik seçkilər keçiririk və bizə nə isə öyrətməyə ehtiyac yoxdur. Biz istənilən qurumla əməkdaşlıq edirik. Amma milli maraqlarımız bizim üçün daha vacibdir. Bu gün Avropada ədalət defisitə çevrilib. Miqrantlar, qaçqınların axını Avropanı çaşdırıb. Azərbaycan isə 1 milyon qaçqın və məcburi köçkün üçün istənilən şərait yaradıb. Bu gün sabitlik elə Azərbaycandadır”.

* * *

Günün sonuncu görüşü isə Milli Məclisdə ayrı-ayrı siyasi partiyaları təmsil edən deputat qrupu ilə keçirildi.

Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə ölkəmizdəki seçki mühiti ilə bağlı qonaqlara məlumat verdi. Sonra Ümid Partiyasının sədri İqbal Ağazadə dedi ki, onların istəyi AŞ PA-nın Azərbaycana göndərdiyi missiyanın ədalətli hesabat hazırlamasıdır. Azərbaycanda demokratiyanın daha da inkişafı üçün yalnız hakimiyyətlə daha yaxından münasibət qurmaq lazımdır. Bu həm AŞ PA-nın, həm də Azərbaycanın xeyrinədir.

Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı bildirdi ki, müşahidə missiyasının göndərilməsi AŞ PA-nın Azərbaycana verdiyi dəyərin göstəricisidir. Hər dəfə ölkəmizdə keçirilən seçkilərlə bağlı bu qurum müsbət rəyini bildirib və Azərbaycan xalqı istədiyi namizədə səs verərək özü üçün deputat seçib. Bu seçkilərdə də seçicilər səs verərək öz layiqli namizədlərinə dəstək olacaqlar. Müşahidə missiyası da bütün bunları hazırladığı hesabatında əks etdirəcək.

Ədalət Partiyasının sədri İlyas İsmayılov isə bildirdi ki, artıq Avropa Azərbaycanı yaxşı anlayır. Qaçqın, miqrant problemi ilə üzləşən Avropa Azərbaycanın 27 il ərzində hansı çətinliklərlə üzləşdiyini anlayar. Ona görə də Ermənistana qarşı kəskin sanksiya qəbul edilməlidir.

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev isə vurğuladı ki, artıq Azərbaycan xalqının Avropa strukturlarına inamı itib. Çünki işğalçı Ermənistan dövlətinə qarşı heç bir sanksiya tətbiq edilmir. Qəbul olunmuş qətnamələr isə kağız üzərində qalır. Əgər AŞ PA Azərbaycanla daha sıx əməkdaşlığa önəm verirsə, əlaqələri daha da gücləndirsin və işğalçı ölkəyə qarşı sərt tədbirlər həyata keçirsin.

Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev bildirdi ki, rəhbərlik etdiyi partiya 63 dairədən seçkilərə qatılmağa qərar verib. Hazırda namizədlər imza vərəqələrini təhvil vermək üzrədirlər.

Sonda müşahidə missiyasının üzvü Xordi Şukla dedi ki, missiya seçki ərəfəsində hazırlıq prosesini, məcburi köçkünlərin səsvermə şəraitini, dairə və məntəqələrdəki durumu müşahidə edəcək və görünən nə varsa hazırlanan hesabatda əks olunacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***